

İmir Məmmədli

## YAZMIRAM DAHA

Sevgi şeirləri yazmıram daha
Qənaət edirəm ağ vərəqlərə.
Harda kağız, vərəq düşsə əlimə
Təyyarə düzəldirəm,
Gəmi düzəldirəm
Nəvələrimə.

## GECİKMƏYİMİZİN BAŞLICA SƏBƏBİ

Gecikirik, çünki hələ yolumuzu
Gözləyənlər var.
Gözləyən olmasa,
Ürəkdən gecikmək istəsək belə
Gecikəmmərik.

Gecikmək sözüylə gözləmək sözü
Bir-birindən ayrı tam mənasızdır.

## BİR GÖZ QIRPIMINDA

Bir gözqırpımında getdin, gözəlim,
Gözümdə əridi üzün qar kimi.
Arxanca çırpındı ayaq izlərim
Sahilə atılan balıqlar kimi.

## GÖRDÜN KÖVRƏLMİSƏN

Gördün, kövrəlmisən hönkür-hönkür,
Ağlamağın gəlir içindən,
Ağlama, əzizim,  gözlə, qoy gəlim,
Güldürə bilməsəm,
Oturub ağlayaram səninlə birgə.

## OVQAT

Havalar soyudu, mən isə sənin
İstini saxlayan yataq kimiyəm.
Titrəyir vücudum, əsir bədənim,
Quşu təzə uçmuş budaq kimiyəm.

Durub pəncərədən baxıram çölə,
Deyirəm ürəyim, daral, keçibdi.
Ruhum dalğalanır, elə bil göləm,
İçimdən indicə maral keçibdi.

## GÜNƏŞLİ VƏ KÜLƏKLİ GÜN

Şəfəq sınır qarışqanın
Parıltılı kürəyində...
Niyyət qalır,
Yön dəyişir
Günün tozlu küləyində...

## KÜLƏKDƏ YANAN TONQAL

Ocağın üstünə atdıq çırpını,
Havada ayaz var,
yol-cığır buzdu.
Od-alov küləkdə elə çırpınır,
Elə bil can verən, başsız xoruzdu.

## MÖHTƏŞƏM AN

Qənşərimə çıxdın unanmaz tində,
Gözlərin yolumu elə qatdılar,
Elə bil gecənin lal zülmətində
Qəflətən önümdə tüfəng atdılar.

Beləcə dəyişdi niyyəti, yolu
Qayğısız dolaşan cavanlığımın.
O gündən işığın içimə dolub,
Ömrümsə həmin o nura sığınıb...

## MƏSAFƏ

Məsafə nədir,
Səni məndən uzağlaşdıran,
Yoxsa
Məni sənə yaxınlaşdıran yol?

## İKİ SUAL

O dünya nə təhər olmalıdır ki,
Bunun həsrətini orda çəkməyəm?
Burda eşq odundan tütün çəkmişəm,
Elə olarmı ki, orda çəkməyəm?

## OLMAZDI

Çaylara düşməsə, göylərin əksi,
Sular belə şəffaf, duru olmazdı.
Suların əksisə göyə düşməsə,
Nə günün, nə ayın nuru olmazdı.
Suyu sevə-sevə içməsə səma,
Dənizdən dənizə quru olmazdı...

## DƏRMAN

Ağrını unutdum,
Amma dərmanı,
Ağrının dərmanı çıxmır yadımdan...

## QƏRİBİN XƏYALI

Qürbətdə meydanı tam daralanda,
Qəribin yadına ölkəsi düşdü.
Elə bil həmin an körpə uşağın
Üzünə ananın kölgəsi düşdü.

## YUVASINDA

Elə dinşiyirdi əli əlimdə,
Elə bil sərçədi öz yuvasında;
Yapışıb qalmışdı adı dilimdə,
Sanki uyuyurdu söz yuvasında.

## SEVGİ DƏMİ

Dünyada olanlar bəxtin işidir,
Qəflətən baş verir sevgi dəmi də...
Əli ovucumda elə dinşidi,
Sanki bildirçindi yaşıl zəmidə.

## UZUN ÖMRÜN MƏNASI

Elə uzatmalı getdiyin yolu,
Mənzilin əvvəli yadından çıxsın,
Gənclikdə etdiyin bütün günahlar
Köhnəlib, köhnəlib adından çıxsın.

## ALTMIŞ İLLİYİMƏ

Adım yadımdadı, İmirdi adım,
Hələ tanıyıram köhnə odamı.
Amma bayaq baxıb tanıyammadım
Güzgüdən üzümə baxan adamı.

## SOYUQ GÜNƏŞ

İntihar edənin gözlərindəki
Günəşin əksi
Həm çox yaxındadı, həm də uzaqda,
Yayın qızmarında üşüyür insan,
İliyə işləyir amansız şaxta.

## QƏBİRİSTAN

Elə bil, ölümün əlindən qaçıb
Daşların altında gizlənib onlar.
Amma zalım ölüm burda da tapıb
Zavallıları.

## GECƏ MƏNZƏRƏSİ

Sorağı gəlirdi könüldən tək-tək
Köhnə arzuların, köhnə muradın.
Dişi yalquzağın ulartısı tək
Gedirdi zülmətə bürünmüş qadın.

Elə bil, çöllərin pərisi idi,
Gecə də təkcə idi, qadın da təkcə.
Erkək canavarın dərisi idi
Əyninə geydiyi güdüklü gödəkcə.

## BİLİRDİ, AMMA

Hərfləri bilirdi,
Amma nədənsə
Qayıq sözünü qayıt kimi oxuyurdu,
Oldum sözünü - öldüm kimi...

Kim bilir, bəlkə də
İllərcə çəkdiyi həsrətdən idi.

## TORPAQ

Torpağı becərən kişisə əgər,
Torpaq qadındır.
Yox, qadın baxırsa,
Dönüb kişi olur,
Qadın qayğısına ehtiyacı olan
Kişiyə dönür həmin an torpaq...

## SONSUZ QADIN

Özündən çıxınca evdən çıxmışdı,
Hönkürtü səsini külək udurdu.
Əlini qoynuna elə sıxmışdı,
Elə bil üçaylıq çağa tuturdu.

Sataşmasın deyə bədxah gözünə,
Beləcə büzüşüb tində dururdu.
Təsəlli verirdi hərdən özünə,
Sanki körpəsini ovundururdu.

## GETMƏYİN ZAMANI

Uzaq asimanda
Nöqtəyə dönən təyyarə kimi
Gözünüz önündə
Əriyib kiçilib balacalaşıb
Sonra gedəcəm.

## PARADOKS

Oturmuşam özüm üçün,
Xəyallarım uzaqdadı,
İsti evin dəyəri də
İstidə yox, sazaqdadı.

Ürəyimdə olan şeylər
Həm də mənim çölümdədi.
Ömrün məğzi, mənası
Ömürdə yox, ölümdədi.

## YAZIN GƏLİŞİ

Yenidən yadıma düşdün, əzizim,
Yəqin yatmış meh də belə tərpənər.
Yenə gözəlləşdi çılpaq ağaclar,
Kol-koslu dərələr, bomboz təpələr.

Nə olar, bir daha çıxma yadımdan,
Bilmirsən, yaddaşsız dözdük nələrə...
Çılpaq ağaclara yazığın gəlsin,
Rəhm elə, əzizim, boz təpələrə.

## KƏND AVTOBUSU

Avtobus gəlirdi, dolu avtobus,
Çox gəliş görmüşəm bu gəliş kimi.
Bir qız oturmuşdu salonda, bir qız,
Ağ dişlər içində qızıl diş kimi.

Avtobus şəhərə yavaş gəlirdi,
Eşq ilə doluydu onun şinləri.
Şəhərin üzünə irişdirirdi
Saxlama paltarlı sərnişinləri.

## GECƏNİN ƏLAMƏTLƏRİ

Gecə çaylar dəyişir,
Görən deməz su sudu.
Qara naxışlar vuran
Pişik moyultusudu.

Demə hilal, ulduzlar
Bir gecənin bəsidir,
Gecəni gecə edən
Məchul ayaq səsidir.

## GECƏNİN GƏLİŞİ

Yenə axşam oldu, öz mənzilinə,
Doğma yuvasına çəkilir hərə.
Ayın yedəyinə düşüb də yenə
Gecə camış kimi gəlir şəhərə.

Görəsən, bu gecə harada qalmış,
Belinə yapışıb onun qarını.
Ağır addımlarla gələn bu camış
Otlayır şəhərin çıraqlarını.

## DAĞLARDA KİMSƏSİZLİK

İtdi ayın, günün sayı,
Yollar yaman darıxdılar.
Gözləməyib daha yayı,
Vaxtı azad buraxdılar.

Günəş yenə qalxdı göyə,
Dağdan endi, dağa çıxdı.
Amma insan yoxdu deyə
Zaman itib yoxa çıxdı.

## QƏMLİ ƏHVALAT

Hələ təkərlərin gizlin lərzəsi
Canındaydı yolun, çınqılın, daşın.
Bildim, təzə gedib, təzə tərpənib
Səni də şəhərə aparan maşın.

Dönüb sizə qaçdım, dedim, kim bilir,
Bəlkə evlərində gördüm o qızı.
Külək yırğalayıb cırıldadırdı
Cəftəsi açılan darvazanızı.